**Latın (kontinental) notariat sistemi**

Azərbaycan Respublikasının hüquq sistemi roman-german, yəni kontinental hüquq sisteminə daxil oduğuna görə, notariat fəaliyyəti və onun qanunvericilik bazası kontinental hüquq sisteminə, bütün dünyada qəbul edilmiş şəkildə desək, latın notariat sisteminə daxildir.

Latın notariat sistemində istənilən notariat aktı bütün fiziki və hüquqi şəxslər, dövlət və qeyri-dövlət orqanları tərəfindən mübahisəsiz olraq qəbul edilən sənəddir. Burada notariat aktını rəsmiləşdirmək üçün etibar edilən şəxs, dövlətin təsdiq etmə səlahiyyəti verdiyi peşəkar notariusdur. Latın notariatında notariat fəaliyyəti, həm mübahisəsiz sənədlərin və faktların təsdiqi, həm də məhkəmə mübahisələrini önləmək və mübahisələrin qarşısını almaq funksiyasını daşıyır.

Latın notariatının prinsipləri:

1) öz nazirliyinə, dövlət hakimiyyəti orqanlarına və həmkarlarının peşə qurumlarına hörmət et;
2) notariat hərəkətini qanun çərçivəsində hərəkət etdiyindən əmin olduğun halda həyata keçir; mövcud şübhələr hərəkətin təsdiqinə keçməzdən əvvəl həllini tapmalıdır, qanuniliyinə və düzgünlüyünə dair kiçik bir şübhə olduğu halda notariat hərəkətini həyata keçirməkdən çəkin;
3) Həqiqətə (gerçəkliyə) yetərincə əhəmiyyət ver;
4) işində ehtiyatla davran;
5) materialları (iş üzrə, həmçinin qanunvericilik üzrə) həvəslə və diqqətlə öyrən;
6) Şərəfinlə məsləhətləş;
7) idarəçiliyi Ədalətlə et;
8) Qanun çərçivəsində məhdudlaş;
9) Ləyaqətlə işlə;
10) Yadda saxla, sənin (yəni, notariusun) missiyan mülki-hüquqi mübahisələrə yol verməməkdən ibarətdir.

(Bu prinsiplər 1965-ci ildə Meksikada keçirilən Beynəlxalq Latın Notariatının 89-cu Beynəlxalq konqresinin plenar iclasında Ekvador notariusları nümayəndəsinin çıxışından götürlmüşdür.)